**Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Bakı şəhəri, 16 yanvar 2014-cü il

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 1001; 2008, № 12, maddə 1057; 2010, № 7, maddə 617; 2011, № 1, maddə 21; 2012, № 1, maddə 9, № 12, maddə 1265) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "Sumqayıt Baş Gömrük İdarəsinin rəisi - gömrük xidməti general-mayoru" abzasından sonra aşağıdakı məzmunda abzaslar əlavə edilsin:

"Aksiz Baş Gömrük İdarəsinin rəisi - gömrük xidməti general-mayoru";
"Avtonəqliyyat Baş Gömrük İdarəsinin rəisi - gömrük xidməti general-mayoru".

2. "Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini - gömrük xidməti general-mayoru" abzasından sonra aşağıdakı məzmunda abzas əlavə edilsin:

"Baş Gömrük Mühafizə Xidmətinin rəisi - gömrük xidməti general-mayoru".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**